AYTƏKİN ƏLİZADƏ
Bakı Avrasiya Universiteti
Bakı Nərimanov rayon Həsən Əliyev 135 A
aytekin.alizade23@mail.ru

ƏDƏBİYYATDA UTOPIYA VƏ ANTIUTOPIYA IKI FƏRQLI DÜNYA MODELI KİMİ

Xülasə:

XX əsr iki dünya müharibəsinə şahidlik etmişdir. Müharibə ilə bağlı insanlarda baş verən psixoloji bədbinlik ədəbiyyata təsirsiz ötüşməmişdir. Buna görə də, XX əsrdə utopik düşüncə antiutopik düşüncə ilə əvəzlənir. İstənilən halda antiutopik düşüncə utopik düşüncəyə əsaslanır. Təsadüfi deyildir ki, antiutopik nəsrdə hər zaman utopik ünsürlərə yer verilir.

Utopiya anlayışını ilk dəfə Tomas Mor istifadə etmiş, öz romanını "Utopiya"adlandırmışdır. Bir sıra mənbələrdə Tomas Morun filosof Platonun "Dövlət" əsərindən təsirləndiyi fikirlərinə rast gəlinir. Azərbaycan ədəbiyyatında utopik düşüncənin rüşeymlərinə daha qədim zamanlarda rast gəlmək mümkündür. Lakin bu fakt tədqiqatlara indiyə qədər cəlb olunmamışdır. Təqdim olunan məqalədə bu məsələyə xüsusi diqqət yetirilib.

Antiutopiya anlayışı "pis bir yer" mənasını daşıyır. Antiutopik romanlarda gələcəklə bağlı fikirlərə rast gəlinir. Antiutopik romanlar, əsasən, elmi-fantastik xüsusiyyətə malik olurlar. Məqalənin tədqiqat obyektində dayanan bu tip əsərlərin mövzusu üsyan, inqilablar, müharibələr, fəlakətlərdir. Dünya ədəbiyyatında antiutopik roman janrının ilk nümunəsinə rus ədəbiyyatında rast gəlinir. Corc Oruell də öz antiutopik əsərlərini məhz rus ədəbiyyatından təsirlənərək yazmışdır. Təqdim olunan məqalədə Azərbaycan ədəbiyyatında antiutopik nəsr nümunələrinə az da olsa, rast gəlindiyi vurğulanır.Qeyd olunur ki, istər antiutopik, istərsə də utopik romanlar xeyirlə şərin mübarizəsi kimi daim vəhdət təşkil edir. Utopiya olmasaydı, antiutopiya bir məna kəsb etməzdi. Eləcə də antiutopiyanın mövcud olması üçün utopiyanın inkarı vacibdir.

Açar sözlər: utopiya, antiutopiya, dünya modeli, Tomas Mor, Corc Oruell

XX əsrin modern insanının nihilist mövqeyində utopik düşüncənin yerini antiutopik düşüncə əvəzləyir. Antiutopik düşüncənin qaynağında isə utopiya anlayışı dayanır. Dünya ədəbiyyatında müxtəlif dövrlərdə üzə çıxan utopik dünya modelləri, real həyatda mümkün olmayan ədalətlə idarə olunan məkan təsvirləri vardır. Utopiya insanın xoşbəxtliyin baş verəcəyinə inamının, pozitiv yanaşmanın doğurduğu bir düşüncə tərzidir. Platonun "Dövlət" əsərində rüşeymləri qoyulan ideal dünya modelini ifadə edən utopiya sözü Tomas Mordan başlayaraq bugünə qədər, bütün xəyali və ideal cəmiyyət təsvirlərinin adı olmuşdur. Utopiyalar xoşbəxt cəmiyyət təsvirləridir. Tomas Mor (1478-1535) yunanca "ou" - *yox* və "eu" - *yaxşı* sözlərinin ortaq səsi "u" ilə yer mənasına gələn "topos"u birləşdirərək "var olmayan yaxşı yer" mənasını xatırladan Utopiya sözünü əsərinə ad olaraq seçir. Dünya bədii-fəlsəfi fikrində utopik dünya modellərinin maraqlı nümunələrinə rast gəlmək mümkündür. Məsələn, Günəş Ölkəsi (Tomasso Kampanella), Yeni Atlantida (Frensis Bekon), Telemaq (Fenelon), Kandid (Volter), Xoşbəxtlər ölkəsi (Nizami) və s.

Tomas Mor ilk dəfə "Utopiya" (1516) adlı əsərini yazmışdır. Onun Platondan təsirlənərək yazdığını düşünənlər çox olsa da, bəzi tədqiqatçıların fikrincə, o, yalnız mükəmməl dövlət modeli qurmaq ideasını Platondan almışdır və Platonun dövlətinə bənzəməyən tamamilə başqa bir dövlət anlayışını formalaşdırmışdır. (6, səh.195) T.Morun adı keçən romanında hadisələr Utopiya adasında cərəyan edir və kral Utopusun yerli vəhşi əhalini bir araya toplayaraq qurduğu dövləti necə ədalətli şəkildə idarə etdiyi təsvir olunur. Bütün utopik romanlarda olduğu kimi eyni ilə "Utopiya" romanında birliyi qorumaq üçün dil və din xüsusi rol oynayır. Əgər kral Utopus vahid dil siyasəti yürüdürsə, dini baxımdan da ölkədə tolerantlıq sözün əsl mənasında hökm sürür. Antiutopik romanlarda dil vasitəsilə parçala və hökm et siyasəti utopik romanlar üçün tamamilə yaddır.Hələ

böyük türk şairi Nizami Gəncəvidən bizə tanış olan utopik cəmiyyətdə– "Xoşbəxtlər ölkəsi"ndə ("İskəndərnamə") olduğu kimi Utopiyaa dövlətində də kilid və açarlar yoxdur, hər şey ortaqdır. Lakin hər iki ədibin sözü gedən əsərlərində oxşar cəhətlər olsa da, bir sıra fərqli məqamlar da vardır. Nizami təsvir etdiyi cəmiyyətdə cinayət müqabilində fərdi ölkədən qovmaqla cəzalandırırsa, T.Mor günahkarları ölüm hökmü, kölelik kimi bir sıra qanunlarla cəzalandırır.Əgər düşünsək ki, heç bir ideal cəmiyyətdə şəxsiyyət azadlığının əlindən alınması və ölüm hökmündən söz gedə bilməz, o zaman görərik ki, Nizami Gəncəvi daha humanist mövqedən çıxış etmişdir. T.Morun utopik düşüncə ilə idarə olunan dövlətdə antiutopik dünya modeli üçün xarakterik elementlərə müraciəti ideal cəmiyyət anlayışına xələl gətirən faktordur. Eləcə də, Morun aşağıda qeyd olunan fikirləri ilə süjet boyu önə çıxardığı idarə üsulunda olan bir sıra məqamlar ziddiyət təşkil edir."Utopia`da toplum kurumlarının amacı, her şeyden önce halkın ve bireylerin ihtiyaçlarını gidermek, sonra herkese bedenin köleliğinden kurtulmak, düşüncesini özgürce işletmek, kafa yetilerini bilimler ve sanatlarla geliştirmek için mümkün olduğu kadar çok vakit bırakmaktır. Utopialılar için gerçek mutluluk işte bu düşünce gelişmesinin ta kendisidir." (6, səh.50)

Qeyd edək ki, sözü gedən Utopiya dövləti işğal olunan bir adada yaradılmışdır. Lakin Nizami Gəncəvinin oxucuya təqdim etdiyi dünya modelində isə yerli əhali xoşbəxt cəmiyyət qurmuşdur. Bununla belə, müharibələrdə utopiyalılar yerli əhalinin xoşbəxt yaşayışlarını pozmamaq üçün döyüşə göndərmək məqsədi ilə yad ellilərdən istifadə edirdilər. Müqayisə nəticəsində belə qənaətə gəldik ki, Tomas Mor təfəkkürdə tam olaraq humanist mövqedən çıxış etməmişdir və yaratdığı cəmiyyət tam utopik düşüncəyə uyğun deyildir. Antiutopik romanlar üçün xas olan qanunlar utopik təfəkkürə uyğunlaşdırılsa da, fərq bundan ibarətdir ki, bu qanunlar Utopiyada sözün əsl mənasında ədaləti bərqərar etmək üçün tətbiq edilir.Fikir cinayəti hər iki düşüncə tərzində demək olar ki, eyni dərəcədə qiymətləndirilir.

"Utopia`da kötü bir şey yapmaya niyyetlenen, bu kötülüğü gerçekten yapmış kadar tehlikeye girer. Çünki Utopialılara göre, bir suçu tasarlamak, o suçu işlemekten farksızdır. Kötülük yapmak isteyen, sadece karşısına bir engel çıktığı için bu kötülüğü yapmamışsa, niçin suçlu sayılmasın?" (6, səh.76)

Tomas Mordan sonra Tomasso Kampanella "Günəş ölkəsi" adlı utopik romanını yazmışdı. Hər iki əsər demək olar ki, sual-cavab şəklində qurulmuşdur. "Günəş ölkəsi" baş rahib Hoh tərəfindən idarə olunur. Üç köməkçisi var: Pon, Sin və Mor. (Güc, ağıl və sevgi)

Bütün utopik mətnlər üçün oxşar xüsusiyyətlər eyni ilə "Günəş ölkəsi" üçün də xarakterikdir. Fərqli cəhətlər bundan ibarətdir ki, ölkə rahib tərəfindən idarə olunduğü üçün din daha qabarıq şəkildə verilmişdir və hər nə qədər ortaqlıq, bərabərlik prinsipinin hökm sürdüyü deyilsə də, mətn ilə tanış olarkən açıq-aydın görünür ki, Hoh və köməkçilərinə qarşı münasibət istənilən məsələdə digər insanlardan fərqlənir, onlar daha üstün tutulur. Bərabərliyi pozan başlıca olaraq dövlətin başında duran idarəçilərdir. "Utopiya"da olduğu kimi burada da ölüm hökmü ən sərt cəzalardandır.

Günəşlilər evlilik məsələsinə çox ciddi yanaşırlar. Əsas vəzifə kimi qarşılarında duran məsələ qadın və kişinin mükəmməl bir soy yetişdirmək üçün birləşməsidir.

Utopiya orta əsrlər humanist intibahının nəticəsi və eyni zamanda manifesti idi. Maarifçilik və pozitivizm dönəmində utopik düşüncə insanın dinə qarşı mübarizəsində axirət dünyasında ona ərməğan ediləcək xoşbəxtlik əvəzinə bu dünyada, gerçək və fiziki aləmdə xoşbəxt olmaq istəyindən irəli gəlirdi. XIX əsrin nikbin əhval-ruhiyyəli insanının yerini XX əsrin əvvəllərində bədbinləşmiş insan tutmağa başlayır, xoşbəxt gələcəyə inam zəifləyir. İki dünya müharibəsindən yorğun düşmüş insanın gələcək arayışında utopiyanın əksi olan dünya modelləri boy göstərməyə başlayır. "Keçən əsrin 60-cı illərində isə, SSRİ ərazisində və ingilis dilli ölkələrdə antiutopiya və distopiya terminlərinin istifadə arealı genişləndi. Bəzi yanaşmalar onların fərqlərini izah etməyə çalışdılar. Belə ki, distopiya bir növ ağlın və rasionallığın xeyir qüvvələr üzərindəki qələbəsi, utopiyaya qarşı tamam antitezdir, antiutopiya isə sadəcə daha çox azadlıq dərəcələri təqdim edən utopik prinsiplərin inkarıdır."(1,35)

Ədəbiyyatşünaslıqda antiutopik dünya modelini ifadə edən bir neçə alternativ sözlərə rast gəlmək mümkündür. Booker, hər zaman bir-birinin yerinə istifadə edilməsə də növün, distopiya, mənfi utopiya, antiutopiya, heterotopya və kakotopya ilə ifadə edildiyini qeyd edir. Bookerın

üstünlük verdiyi söz isə distopiyadır. Distopiya, yunanca "dus" - çətin, pis və "topos"-yer sözlərindən uydurulan bir termindir. Utopiyanın mənfi məna verən "u" ön şəkilçisi ilə "topos" sözündən istehsal edilərək "var olmayan yer "i işarə etməsi kimi "distopiya" termini də "çətin/pis olan yer" mənasını bildirir. Anlayış ilk dəfə Con Stuart Mill tərəfindən 1868-ci ildə "pis bir yer" mənasında istifadə edilmişdir. Mill, distopiya terminini xəyal edilən "ən pis idarəçiliyi və ya vəziyyəti, xaosu, müharibə və zorakılığı" adlandırmaq üçün istifadə etmiş və "gerşəkləşməsini istəyərkən çox diqqətli olmaq lazım olan bir utopiya" kimi qiymətləndirmişdir. (5,42)

Antiutopik romanlar özünəməxsus gələcək ssenariləri ilə seçilir və adətən elmi-fantastik üslubun üstünlüyü ilə yaranır. Antiutopik romanları, normalar və ictimai münasibətlərin xüsusi təşkilatlar tərəfindən idarə olunduğu, əksər hallarda gələcəkdə baş verən, insan azadlığının kökdən rədd edildiyi, kabusu xatırladan boğucu və mürtəce bir cəmiyyətin bədii şərhi kimi qəbul edilir. Nail Bezelə görə utopiyalar, bir növ yer cənnəti təklif edərkən, distopiyalar ağıllarında bir yerdə gizli olan cənnəti inşa etməyə çalışanların yaratdığı cəhənnəmi göz önünə sərirlər. Utopiyalar xoşbəxtlik üçün harmoniyanın vacibliyini vurğulayarkən, distopiyalar uyğunluq və nizam naminə yaşadılan qorxu və ağrını anladır (4, s.17).

Antiutopiyanın əsas xüsusiyyətləri bunlardır:

- Ümumiyyətlə, heç bir hökumət yoxdur və ya varsa, bu təzyiqli və nəzarət edən bir hökumətdir.
- Ya yoxsullarla zəngin arasında böyük bir gəlir fərqi var və ya hər kəs həddindən artıq yoxsulluqla üzləşir.
- Hökumət və ya hakim sinif tərəfindən ortaya atılan təbliğat insan ağıllarına nəzarət edir.

Antiutopiya isə hər şeyin qeyri-kamil olduğu bir dünyadır və hər şey daha da pisləşməyə doğru gedir. Antiutopik ədəbiyyat bizə yaxın gələcəkdə dünyaya nə baş verə biləcəyinə dair sanki güzgü rolunu oynayır. Ümumiyyətlə, bu tip əsərlərin mövzusu üsyan, təzyiq, inqilablar, müharibələr, fəlakətlərdir. Antiutopik romanlar ilk nümunələrinin ortaya çıxdığı dövrdə daha çox fantastik xarakterdə olub əyləncə məqsədi daşıyırdı, lakin getdikcə bədii mündəricəsində mühüm sosial-siyasi məsələlərə münasibət bildirməyə, ictimai quruluşun, elmi-texnoloji və ideoloji nəzəriyyələrin qarşılıqlı təsirindən doğan düşüncə mühiti formalaşdırmağa başladı. Antiutopik bir dünyada insana aid dəyərlər sistemi heçə çevrilir, sevgi, məhəbbət, mərhəmət, vicdan, şəfqət kimi bir çox insani xüsusiyyətlər mürtəce rejimlərin təzyiqi altında yox olmağa başlayır, fərd anlayışını kütlə anlayışı əvəz edir. Ədəbiyyatda antiutopiyanın mərkəzində dövlətlə fərd, bürokratiya ilə vətəndaş arasındakı münasibətlərdə yadlaşma, insan azadlığının nəzərə alınmaması, insanın ideologiyaların qurbanına çevrilməsi kimi məsələlər dayanır. Yaşadığı mühitlə barışmayan, lakin yaşamağa məcbur olan insanın gələcəyə inamsızlığı, qorxuları, qayğıları, sualları, daxili mühakimələri və s. bədii metaforaların gücü ilə izah edilir.

Rus yazıçısı Zamyatinin "Biz" (1924) əsəri dünya ədəbiyyatında antiutopik roman janrının ilk nümunəsi hesab edilir. Roman riyazi motivlər əsasında yazılmışdır və riyazi qanunlar əsasında qurulmuş bir dünya təsvir olunmuşdur. Oldoks Hakslinin "Cəsur yeni dünya" (1932), Corc Oruellin "Heyvanıstan"(1939) povesti, "1984" (1948) romanı, Rey Bredberinin "451 farengeyt" (1953) kimi antiutopik əsərlərini məhz "Biz"dən təsirlənərək yazılmışdır. Azərbaycan ədəbiyyatında Zümrüd Yağmurun "Ölkə adı 22" və Şəbnəm Karslının "2087-ci il" romanı antiutopik romana nümunə kimi verilə bilər. Bundan əlavə Anarın "Ağ qoç, qara qoç" əsəri utopik və antiutopik romanın xüsusiyyətlərini vəhdət şəklində təqdim edən maraqlı əsərlərdən biridir. Dünya ədəbiyyatında antiutopik roman nümunələrinin sayı kifayət qədər çoxdur. Onu qeyd etmək lazımdır ki, hər bir yazıçı antiutopik dünya modeli qurarkən müxtəlif bədii priyomlardan və üsullardan istifadə edir, özünəməxsus çalarlar yaradır.

Bəşər tarixi mövcud olduğu müddətdə ədalətli, utopik cəmiyyət qurmaq meyilləri güclü olaraq qalsa da, alt qatda yatan antiutopik təsirlərlər də hər zaman özünü göstərəcəkdir. Buna görədir ki, nə utopik, nə də antiutopik düşüncə tərzi xalisliyini qorumur. Hər ikisində təsirlənmələr özünü göstərir. Xeyir və şərin mübarizəsi davam etdiyi müddətcə, utopik və antiutopik dünya modeli də qarşılıqlı təsirlənmələrə məruz qalacaqdır.

Ədəbiyyat siyahısı

1. Borev Y. Estetika. Bakı, 2010, 253 s.
2. Corc Oruell. 1984. Bakı, "Qanun Nəşriyyatı", 2016, 383 s.
3. Yevgeni Zamyatin. BİZ. "BaşlaKitab", 2018, 262 s.
4.Bezel N. (1993). Ütopyalarda ve Karşı Ütopyalarda Aklın ve İnsanın Durumu ve Kapsamı. Varlık Dergisi,1026 (3), 17-25.
5. Firdevs Canbaz Yumuşak. Ütopya, Karşı-Ütopya ve Türk Edebiyatında Ütopya Geleneği.http://bilig.yesevi.edu.tr/yonetim/icerik/makaleler/2486-published.pdf
6. Thomas More. Utopia. İstanbul, "Türkiye İş Bankası Kültür Yayınları", 2017, 250 s.

Aytekin Alizada

Utopia and dystopia in the literature as a model of two different worlds

Summary:

XX century was witness of two world wars. The psychological pessimism of people which related with the war has not been inneffective in literature.That's why in the XX century utopian thoughts were replaced with dystopian thoughts. In any case the dystopian thoughts based on utopian thoughts. It's not casual that the dystopian prose is included utopian elements.

For the first time Thomas More used the concept of Utopia, and named his novel "Utopia". In several sources shown that Thomas More was influenced by the work of Plato "The Republic". In the literature of Azerbaijan, it is possible to find embryo of utopian thoughts in ancient times. But this fact has not been involved in research yet. In the presented article special attention was paid to this issue.

The concept of dystopia means "a bad place" . The toughts about the future are encountered in the dystopian novels . Mainly dystopian novels have got scientific-philosophic feature. The theme of the works which are research object of this article is rebellions, revolutions, wars, calamities. The first example of dystopian novel genre in world literature is found in Russian literature. George Orwell also wrote his dystopian works influenced by Russian literature. Even if it's few the fact of encountering the dystopian works in Azerbaijan literature is emphasized in the presented article. It's noted that , either dystopian novels or utopian novels always contain unity as the struggle of evil and good. If utopia was not, dystopia would not have any meaning. As well as denial of utopia is important for the existing of dystopia.

Keywords: utopia, dystopia, model of world, Thomas More, George Orwell.

Айтекин Ализада

Утопия и антиутопия в литературе как модель двух разных миров

Резюме:

В XX веке стала свидетелем двух мировых войн. Психологическое недовольство людей, в связи с войной, не смогла обойти без пессимитического эффекта на литературу. Поэтому в двадцатом веке утопическое мышление заменяют антиутопическим мышлением. В любом случае, антиутопическое мышление основано на утопической мысли. Не случайно в антиутопической процедуре всегда присутствуют утопические элементы.

Впервые утопия использовал Томас Морун, назвал свой роман "Утопия". В некоторых источниках есть такие идеи что философ Томаса Морун был тронут работой Платона "Государство" . В литературе Азербайджана можно найти утопические мыслители эмбрионов можно найти в древних временах. Однако этот факт еще не было в исследованиях. В представленной статье особое внимание было уделено этому вопросу.

Понятие антиутопие означает "Плохое место". В антиутопические романах можно найти идеи о будущем. Антиутопические романы в основном научно-вымышленном жанре. Предметом таких статей, основанном на объекте исследования, являются восстание, революции, войны, катастрофы. Первый пример антиримского жанра в мировой литературе встречается в русской литературе. Джордж Оруэлл написал свое антиутопические романы вдохновившись работами русской литературы. В представленных статьях есть несколько примеров антиутопической прозы из Азербайджанской литературы. Отмечается, что как антиутопические, так и утопические романы всегда согласны с единством добра и зла. Без утопии антиутопия не имела бы смысла. Также важно отказаться от утопии из-за существования антиутопии.

Ключевые слова: утопия, антиутопия, модель мира, Томас Мор, Джордж Оруель.

Redaksiyaya daxil olma tarixi: 02.04.2019
Çapa qəbul olunma tarixi: 06.05.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Maraq Yaqubova tərəfindən çapa tövsiyə olunmuşdur.